**AZƏRBAYCAN RESPUBLİKASININ**
**KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ**

AZ1069, Bakı, Azərbaycan,
Mustafa Kamal Atatürk pr., 134

**Tel.:** (+994 12) 404 04 01
**Faks:** (+994 12) 404 04 03

**E-poçt:** info@smb.gov.az
**www.smb.gov.az**

21 yanvar 2021-ci il

№ KOB-X/O-228/2021

Azərbaycan Respublikası Auditorlar
Palatasının sədri cənab Vahid Novruzova

17.12.2020-ci il tarixli 01-1/127A
nömrəliyə

Auditorlar Palatasının 25 illik yubileyi münasibəti ilə

Hörmətli Vahid müəllim,

Sizi və Azərbaycan Respublikası Auditorlar Palatasının dəyərli kollektivini palatanın yaranmasının 25 illik yubileyi münasibəti ilə öz adımdan və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində maliyyə sisteminin mühüm sahəsi olan audit xidmətinin həcmi və əhatə dairəsi genişlənmiş, həmçinin şəffaflığın təmin olunmasında və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu əhəmiyyətli dərəcədə artmışdır. 1996-cı ilin 5 aprel tarixindən fəaliyyətə başlamış Auditorlar Palatasının bu sahədə fəaliyyəti xüsusilə əhəmiyyətlidir. Ölkəmizdə beynəlxalq audit standartlarının tətbiqində və peşəkar auditorların hazırlanmasında da Auditorlar Palatasının xidmətləri diqqətəlayiqdir. Təsadüfi deyildir ki, Auditorlar Palatasının uğurları istər dövlət orqanları tərəfindən, istərsə də ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

İnanırıq ki, Auditorlar Palatasının kollektivi bundan sonra da ölkə rəhbərliyinin qoyduğu iqtisadi inkişaf kursuna uyğun olaraq büdcə-maliyyə nəzarətinin gücləndirilməsi, maliyyə vəsaitlərindən səmərəli istifadə olunması, sosial-iqtisadi sahədə şəffaflığın daha da artırılması üçün öz səylərini əsirgəməyəcəklər.

2021-ci ilin 5 aprel tarixində yubiley münasibəti ilə təşkil olunacaq "Audit: təşəkküldən

təkamülə doğru (problemlər, yeni dövrün çağrışları)" mövzusunda beynəlxalq elmi-praktiki konfransda "KOB-ların uçot və hesabatlılığının sadələşdirilməsi və təkmilləşdirilməsi imkanları" adlı çıxışın tərəfimizdən təqdim olunması üçün proqrama daxil edilməsini xahiş edirik.

Əlamətdar gün münasibəti ilə Sizi və Auditorlar Palatasının kollektivini bir daha təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

İdarə Heyətinin sədri Orxan Məmmədov